*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 iyun 2016-cı il № 42 (2057) Qiymətı 25 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 iyun 2016-cı il.

## Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı işə başlayıb

İyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının IV Qurultayı işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayın açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı qurultayda nitq söylədi.

Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edir. Qonaqların arasında xarici ölkələrin Azərbaycana dost münasibəti ilə tanınan nüfuzlu siyasətçiləri, ictimai xadimləri, elm adamları və bir neçə ölkənin yüksək vəzifəli şəxsləri, parlament üzvləri də var. Xaricdən dəvət edilən qonaqlarla yanaşı, qurultayın işində Azərbaycanın müxtəlif dövlət və hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, təhsil, mədəniyyət və digər yaradıcı qurumların, siyasi partiyaların təmsilçilərindən ibarət 360 nəfərlik nümayəndə heyəti də iştirak edir.

**AZƏRTAC**

*Ön xətdən reportaj*

# O dağın bu üzündə...



Havada bir az yaz qoxusu var, bir az yay qoxusu. Yaz üzülür, yay düzülür...

Güzarımız özü boyda səngər olan "qüdrətdən səngərli-qalalı dağlaradı"...

Yolun sağında-solunda biri digərinə mətərislənmiş ağacları görüncə, Topxana meşəsi düşür yadıma. Topxana işğal altındadı. Yad nəfəsi dəydiyinə görə, yad nəzərləri baxdığına görə, indi o yerlərdə ağaclar sınıxa-sınıxa böyüyür...

...Ürəyim qar qalaqlarının arasından keçib dağa dolanan yolun son ucuna çataqlıdı; ürəyimin döyündüyü ünvana tələsirəm. Vaxt öz axarındadı...

...Bu da nə vaxtdan bəri arzuladığım zirvə!.. Ruhumuzun keşikçiləri!

Nə görürəmsə, gözlərimə köçür, gözlərimdən isə könlümə...

Duman gah sıxlaşır, gah çəkilir... Dənəbir-dənəbir qar yağır. Döyüş növbəsində olan əsgərlərimizi düşünürəm. Qar üstünə qar yağır. Yağan qar ürəyimə yağır elə bil; yaz üzülən, yay düzülən vaxtlarda qar... "Yağan qar əsgərlərimizi üşüdə bilməz. Ürəyində Vətən sevgisi olanlara qar-sazaq, sovruq kar eləyə bilməz!" - düşünürəm.

Torpaqsevərliklə işğal niyyətinin qarşı-qarşıya dayandığı məkanlardan birindəyik. Ruhumuzun ucalıq ünvanlarındandı. Aylardan bəri ahənrübaya dönüb ürəyimi özünə çəkirdi. 1993-cü ilin yanvarında döyüşçülərimiz bu dağ silsiləsinin sol qanadından aşıb işğalçını Kəlbəcərin hüdudlarınacan qovmuşdu. Yadıma bir məsəl düşür. "Su axan yerdən bir də axar"...

(Ardı 3-cü səhifədə)

# “Efes - 2016” təlimində Azərbaycan da təmsil olunub

***Türkiyənin İzmir vilayətində iki ildən bir keçirilən ənənəvi "Efes" hərbi təlimlərinə bu il ilk dəfə olaraq dost və müttəfiq ölkələrin hərbçiləri də qatılıblar.***

İzmirdə təşkil olunan brifinqdə məlumat verilib ki, mayın 4-də başlayan bir aylıq təlimlərdə Türkiyə ilə yanaşı, Azərbaycan, ABŞ, Almaniya, Pakistan, Polşa, Qətər və Səudiyyə Ərəbistanının silahlı qüvvələrinin birlikləri də iştirak edir.

Türkiyədən təlimlərə Silahlı Qüvvələrin Baş Qərargahı, Quru Qoşunları, Hərbi Dəniz və Hava Qüvvələri komandanlığı, Jandarma Qüvvələri ilə yanaşı, Xarici İşlər, Səhiyyə nazirlikləri də daxil olmaqla, bir sıra mülki qurumlar da cəlb olunub. Ümumilikdə təlimlərdə 7500 nəfər iştirak edir ki, bunun da 900-ü xarici ölkələrin hərbçisidir.

Təlimlərin yekun mərhələsində təşkil edilən yüksək səviyyəli müşahidə gününə bir sıra ölkələrin müdafiə nazirləri, silahlı qüvvələrin baş qərargah rəisləri və yüksək rütbəli hərbçilər dəvət olunublar. Bu tədbirdə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edib.



Əvvəlcə qonaqlar Türkiyədə müdafiə sənayesi sahəsində fəaliyyət göstərən müəssisələrin və nəhəng şirkətlərin ən müasir məhsullarının nümayiş etdirildiyi sərgi ilə tanış olublar. Daha sonra onlar Təlim İdarəetmə Mərkəzində hərbi təlimin gecə şəraitində keçirilən hissəsini izləyiblər. Ümumilikdə 79 ölkədən hərbi müşahidəçilərin izlədikləri gecə fəaliyyət proqramı çərçivəsində verilən tapşırıqlar uğurla yerinə yetirilib.

Ertəsi gün Prezident Rəcəb Tayyib Ərdoğan, Baş nazir Binəli Yıldırım və digər rəsmi şəxslər də təlimlərə baxıblar. Məlumat verilib ki, təlimlərin məqsədi iştirakçı birlik və qərargahların birgə əməliyyatının komanda nəzarət və təminat sahələri də daxil olmaqla, planlaşdırma və qarşılıqlı əməkdaşlıq şəraitində işləmək qabiliyyətinin inkişaf etdirilməsidir. Müəyyən edilmiş ssenari əsasında müxtəlif qoşun növləri, texnika və silahlardan istifadə olunmaqla həyata keçirilən əməliyyatlar yüksək qiymətləndirilib.

Azərbaycan Silahlı Qüvvələrinin təlimlərə qatılan 30 nəfərlik heyəti əməliyyatların böyük əksəriyyətinə cəlb edilib. Silahlı Qüvvələrimizin hərbi qulluqçuları təlimlər çərçivəsində keçirilən və iştirakçıların müxtəlif hərbi və fiziki hazırlığının nümayiş etdirildiyi yarışın qalibi olublar.

**AZƏRTAC**

# Qarsda Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimi keçirilir



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən Qars şəhərində iki ölkənin Silahlı Qüvvələrinin iştirakı ilə təlim başlayıb.

Təlimdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev və Türkiyə Respublikasının Üçüncü Ordu komandanı ordu generalı İsmail Serdar Savaş iştirak edirlər. Eyni zamanda təlimə ilk dəfə olaraq müşahidəçi qismində Gürcüstan Silahlı Qüvvələrinin nümayəndələri də qatılıblar.

1200-dən artıq şəxsi heyətin iştirakı ilə keçirilən döyüş atışlı taktiki təlimin əsas məqsədi Silahlı Qüvvələr arasında təcrübə mübadiləsini reallaşdırmaqla qarşılıqlı əlaqələri inkişaf etdirmək, qərargahlarda müştərək planlaşdırma fəaliyyətlərini yoxlamaq, hərbi bölmələrin hazırlığını və əməliyyatları icra etmək qabiliyyətini yüksəltməklə onların uyarlılığına nail olmaqdır.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının nümayəndə heyəti Hərbi Prokurorluqda olub

***İyunun 3-də Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin hüquq məsələləri üzrə köməkçisi general-mayor Hayrettin Kaldırımcının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Respublika Hərbi Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, X.Vəliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də uğurla inkişaf etdiyini vurğulayıb. Hərbi prokuror bu əlaqələrin inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini diqqətə çatdırıb, ulu öndərimizin "bir millət, iki dövlət" kəlamını xatırladıb. Həmçinin dövlətlərimiz arasında strateji münasibətlərin mövcudluğu və bunun məntiqi nəticəsi kimi, xalqlarımızın bütün məsələlərdə bir-birinə hərtərəfli dəstək verməsi xüsusi qeyd edilib.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üçün dövlət səviyyəsində görülən tədbirlər, prokurorluğun, o cümlədən Hərbi Prokurorluğun fəaliyyətini tənzimləyən hüquqi bazanın yaradılması, bu qurumun tarixi, strukturu, fəaliyyət istiqamətləri ilə bağlı ətraflı məlumat verilib.

Görüşdə Azərbaycanın işğal olunan ərazilərində aprelin əvvəllərində erməni hərbi birləşmələrinin Silahlı Qüvvələrimizin cəbhəboyu mövqelərini artilleriya qurğularından kimyəvi tərkibli mərmilərdən istifadə edərək intensiv atəşə tutmaqla beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozaraq mülki əhaliyə qarşı törətdiyi cinayətlər, həmçinin hərbçilərimizin yüksək döyüş hazırlığı sayəsində erməni təxribatının qarşısının qətiyyətlə alınması qonaqların diqqətinə çatdırılıb. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkünün olduğu, əsir düsmüş şəxslərə işgəncə verilməsi, terror və erməni silahlı qüvvələrinin digər cinayət əməlləri nəticəsində azərbaycanlıların soyqırıma məruz qaldığı, törədilmiş bu ağır cinayətlərin istintaqının Hərbi Prokurorluq tərəfindən aparıldığı qeyd olunub.

Respublika Hərbi Prokurorluğunun Təşkilat-Analitik şöbəsinin rəisi ədliyyə polkovniki Toğrul Hüseynov, Dövlət İttihamının müdafiəsi üzrə şöbənin rəisi ədliyyə polkovniki Aydın Ələsgərov və Azərbaycan Respublikası hərbi prokurorunun köməkçisi ədliyyə polkovniki Səfər Əhmədov ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, hərbi cinayətlər və terrorizmə qarşı mübarizə ilə bağlı qonaqlara ətraflı məlumat veriblər.

Nümayəndə heyətinin rəhbəri general-mayor Hayrettin Kaldırımcı Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. O, ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını, dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, eləcə də hərbi əməkdaşlıq və hüquq mühafizə orqanları sahəsində də uğurla inkişaf etdiyini xüsusi vurğulayıb. Nümayəndə heyətinin rəhbəri Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən tədbirlərdən məmnunluğunu ifadə edib. Qonaq Türkiyənin Silahlı Qüvvələrində hərbi-hüquq qaydaları və məhkəmə sistemi barədə məlumat verərək islahatların aparıldığını bildirib, təcrübə mübadiləsinin hər iki tərəf üçün əhəmiyyətini söyləyib. O, bu münasibətlərin daha da genişlənməsi üçün səylərin artırılmasının vacibliyini qeyd edib.

Sonra türkiyəli qonaqlar Respublika Hərbi Prokurorluğunun inzibati binasında yaradılan şəraitlə tanış olub, buradakı Memorial Soyqırımı Muzeyini ziyarət ediblər. Hayrettin Kaldırımcı muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Türkiyə nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# O dağın bu üzündə...

(Əvvəli 1-ci səhifədə)

İndi ordumuz çox güclüdü. İndi ordumuz müasir silahlarla təchiz olunub. İndi Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş ruhu Vətənin arzuladığı səviyyədədi.

Dağ silsiləsinin qarşı yaxası düşmənin mövqeyidi. Döyüş növbəsi aparan əsgərlərimiz bütün ərazini ciddi nəzarətdə saxlayır. Necə deyərlər, boyu görünən can itirir...

Göz tutduqca uzanan dağ massivi əsgərlərimizin əhatəsində özü boyda könül xoşluğudu. Bu anlarda könlüm Qarabağdan da keçir, Kəlbəcərdən də; səngər-daşlara sığal çəkirəm. Barmaqlarım isinir. Mayor Nemət Rəhimov könlümdən keçənləri duyur: "Az qalıb. Yaxınlarda o torpaqlara da gedəcəyik..." - deyir. "Gedəcəksən" - demir, "Gedəcəyik..." - deyir. "Onda məni də sıralarında görmək istəyir" - düşünürəm. Zabitin bu şirin kəlmələri gözümün nurunu artırır, dizimin taqətini, ürəyimin təpərini. İfadə edə bilməyəcəyim ehtiramla əsgərlərə baxıram...



Yazla yayın ayrıcında əsgərlərimiz mənə bunca gözəl ümid yaşadır. Bu gözəl ümid üçün bu aşırımı dizin-dizin aşaram!..

Aşırımdan bir az aşağıda gözlərimə bir daş dəyir. Mənə elə gəlir ki, bu binəva daş göyərməkdədi; həsrət qara daşları da göyərdir; müharibə tezliklə başa çatmalıdı.

O daşdan o yanda çiçəklər gün üzünə çəkinə-çəkinə çıxır yəqin. Mehr görmürlər deyə, mehrlilərin nəfəsi ləçəklərini titrətmir deyə boyun-boyuna veriblər. Müharibə tezliklə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmaqla başa çatmalıdı. Azərbaycan əsgəri tarixin səhvini düzəldəcək!..




Əsgərlərdən birinin baxışlarından sezdiklərim düşüncələrimin işığına dönür. Bir vaxtlar "Ana, Murovdan gəlirəm!" (şair Abdulla Qurbaninin eyni adlı kitabı nəzərdə tutulur - R.H.) - deyən əsgərlərimizin oğulları əsgərdi indi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cavidan Qarayevin atası İdris Qarayev 1992-1993-cü illərdə elə bu hərbi hissədə xidmət eləyib. İndi təqaüddədir. Atasından fəxrlə, qürurla danışan Cavidanın nümunəvi xidmət etdiyini öyrənirəm. "Mən anadan olanda atam elə bu postda olub. Oğlu olduğunu elə bu postda eşidib,.." - deyir Cavidan. Baxışlarında hiss edilməsi çətin olmayan munis bir şükranlıq var; bir vaxtlar atanın ayaq səslərini dinşəyən daşları indi oğlunun ayaqları sığallayır...

Cavidan qürurla qardaşı Elbarizin də hərbçi olduğunu deyir. Ata əsgər oğullarıyla qürurlanır yəqin, oğullar atanın döyüş yoluyla. Bu, xoşbəxtlikdi!..

Mayor Nemət Rəhimov qürurla, sevgilərlə aprel döyüşlərini xatırladır. Bildirir ki, əsgərlərimiz ciddi-cəhdlə döyüşlərə getmək istədilər, ehtiyac olmadığını bildirdik. Belə əsgərləri olan ordu torpaqlarını işğaldan azad etməyə qadirdir. O qələbə inamın qələbəsidi, ordu ilə xalqın birliyinin qələbəsidi, istər düşmənə, istərsə də onu gizlin-aşkar dəstəkləyənlərin ümidini puç eləyən qüdrətin təntənəsidi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Ən güclü silah yaxşı təlim keçmiş əsgərdir" fikrinə istinad edən zabit deyir ki, şəxsi heyətin yüksək döyüş hazırlığı elə bu səviyyədə mənəvi hazırlığıyla tamamlanır. "Ali Baş Komandanın verəcəyi istənilən əmri yerinə yetirməyə hər an hazırıq. Düşmən geri çəkilməzsə, son damla qanımıza qədər döyüşməyin, torpaqlarımızı işğaldan azad etməyin intizarındayıq..."

Leytenant Elvin Kərimov baxışlarını bir qədər uzaqlarda çən-çiskin bürümüş yüksəklikdən çəkmir: "Çətin mövqe olsa da, əsgərlərimiz burada sevgilərlə, qədərsiz məsuliyyətlə xidmət edirlər. Heç biri xidmətinin sonunacan buradan başqa mövqelərə, başqa postlara dəyişilməyi ağıllarına belə gətirmir". Alnını ovuşdurur: "Bu postdan əvvəl-əvvəl çiskin bürümüş o yüksəkliyə, oradan da Qarabağa getmək niyyətindədirlər. Aprelin 1-də gecə saat 1-in yarısında o yüksəklikdən bizi iriçaplı pulemyotlardan, minaatanlardan atəşə tutdular. Dərhal müvafiq silahlardan cavab atəşi açdıq. Atışma 3-4 saat davam etdi. Düşmən susduruldu...".

Əsgərlər Vüsal Rzayev də, Şahin Əlirzayev də, Sahib Həsənov da, Fərid İsmayılov da özündən, özlərindən danışmırlar, aprel döyüşlərindən, Lələtəpə uğrunda döyüşənlərdən danışırlar. O qələbənin bu dağ massivini də dikəltdiyini deyirlər:

- Döyüşlərdən uzaqda olsaq da, ürəyimiz onlarla döyünürdü. Biz də getmək istəyirdik. Komandirlərimiz dedi ki, düşmənin həmləsinin qarşısını almağa o istiqamətdəki təmas xəttində kifayət qədər gücümüz var.

Ani olaraq susur. Nələrisə xatırlamaq istəyir. Hiss olunur ki, ürəyindən keçənləri demək istəmir, söhbətin axarını başqa səmtə yönəldir:

- Silahı necə atmağı öyrənmişik, Vətəni necə sevməyi o döyüşlərdən, o döyüşlərdə şəhid olanlardan öyrənirik. Məqamında biz də elə əsgər olacağıq!..

Səsində dönməz qətiyyət var, inam var, qədərsiz sevgi var - Vətənə, şəhidlərə, şəhidliyə ehtiram var...

"Vətəndən Vətənə baxmaq ağırdı." Bu deyimi nə vaxtsa eşitmişəm. O hissləri indi mən yaşayıram. Atdığımız mərmilərin öz torpağımızı yaraladığını düşünəndə adamın qəlbi qana dönür. Torpağın nələr çəkdiyini xatırlayanda təsəlli tapırsan: mərmilər işğalın ömrünü gödəltmək üçün atılır. Əzəli sərhədlərimizdə bu əndişəni yaşamayacağıq. Səngərlərimiz sərhədlərimiz olacaq. Səngərləri sərhədlərimizə bu əsgərlər köçürəcək!..



Yazla yayın ayrıcında əsgər Rəşad Köçəriyevin dedikləri düşüncələrimin quluncunu qırır:

- Vəzifəmiz tapşırılan ərazini düşmənin həmlələrindən müdafiə etməkdir. Ancaq bu vəzifə yaxın vaxtlar üçün müəyyənləşdirilmiş vəzifədi. Əsas vəzifəmiz torpaqlarımızı işğaldan azad etməkdi. Səngərlər bizim istəyimizə darlıq eləyir...

Zabit İlkin Yusifov əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olduğunu bildirir. "Bura olduqca əhəmiyyətli mövqedir. Səmimiyyətlə bildirim ki, burada mühüm mühəndis işləri aparılıb, səngərlər gücləndirilib, dairəvi müdafiə təmin olunub. İndi mövqelər hərtərəfli müdafiə edilir", - deyir. Gördüklərimin zəmanətiylə "Görünən dağa nə bələdçi?" - düşünürəm...

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Samir Kərimov əslən Kəlbəcərdəndi. O da digərləri kimi Ali Baş Komandanın əmrinə hazır olduğunu deyir. Səsinin titrəyişində Aşıq Alının, Aşıq Ələsgərin, Aşıq Şəmşirin, Dəlidağın, Qırxqız yaylağının, suyunu içmədiyi bulaqların, gəzmədiyi oylaqların, ruhunun laylaçısı olmalı oylaqların harayını hiss edirəm; könlü bu dağın o üzünə çəkir onu...

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Orxan Xudiyevin dedikləri ürəyimi dağa döndərir:

- Xidmət elədim, tərxis olundum. Mülki həyata sığışa, yığışa bilmədim. Elə bil ürəyimi səngərlərdə qoyub gəlmişdim. Xidmətə qayıtdım. İndi taleyimdən gileyli deyiləm.

Türk şairi Nazim Hikmətin misraları düşür yadıma:

*Mən yanmasam,*
*sən yanmasan,*
*biz yanmasaq,*
*Necə çıxar*
*qaranlıqlar aydınlığa?!..*

"Qaranlıqların" aydınlığa çıxmasına az qalıb. Məmləkətimizi o aydınlıqlara Azərbaycan əsgəri qovuşduracaq!..

Vaxtın necə sovuşduğunu hiss eləməmişik; axşam düşməkdədi...

Aşağı enirik; ayaq gedir, ürək geri çəkir...

Ayaq saxlayıb arxaya baxıram. Qətiyyətin, cəsarətin, igidliyin, mənəvi kamilliyin cazibəsindən bu dağlıq massivdən Dəlidağa aparacaq uğur yolunun yolçularından ayrılmaq istəmirəm. O cazibənin səbəbkarlarının yanına yenidən qayıtmaq ümidiylə baxıram; hər birinin baxışlarından dikələn ovqatı könül xoşluğu bilirəm. Bu könül xoşluğu içində əllərimi Dəlidağın daşlarıyla isidəcəyim anların ruhum arzulayan anlar olduğunu hiss edirəm...

...O dağın bu üzündə kəmələşdiyim əsgərləri bu dağın o üzündə Böyük Qələbə gözləyir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Maltəpə Hərbi Liseyinin nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Türkiyə Respublikasının İzmir şəhərində yerləşən Maltəpə Hərbi Liseyinin zabit və kursantlardan ibarət nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub.

Əvvəlcə nümayəndə heyəti məktəbin qarşısındakı ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyub. Sonra qonaqlara hərbi məktəbin tarixinə, təlim-tədris prosesinə və digər fəaliyyətlərinə dair brifinq təqdim edilib.

Nümayəndə heyəti hərbi təhsil ocağının kafedralarındakı tədris, maddi-texniki və digər hərbi təyinatlı vasitələrlə yaxından tanış olub. Qonaqlara ixtisas fakültələrinin döyüş texnikası və təlim trenajorları, atıcı silahlar və digər hərbi təyinatlı vasitələr barədə ətraflı məlumat verilib.



Maltəpə Hərbi Liseyinin zabit və kursantları hərbi məktəb ilə tanışlıqdan zəngin təəssüratlarla ayrılıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrə Yardım Fonduna iyunun 1-dək 74 milyon manatdan çox vəsait daxil olub

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyunun 1-dək 74 milyon 219 min 200,16 manat, 212 min 373,88 ABŞ dolları, 3293,69 avro və 5 min rubl vəsait daxil olub.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb.

Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməkliyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 iyun 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 25 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***2 iyun 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 20 dəfə pozub.

Tərtər rayonunun Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***3 iyun 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 38 dəfə pozub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# Əsgəri şücaət nümunəsi



Bu gün Azərbaycan Silahlı Qüvvələrinin sıralarına daxil olan hər bir gənc doğma Vətənini, torpağını namusla, vicdanla qoruyacağına və şərəfli əsgər adını daim uca tutacağına and içib bu müqəddəs borcu layiqincə yerinə yetirməyə hazırdır. Onlarda torpaq, yurd heysiyyəti mənəvi dəyərlərimizə söykənən qəhrəmanlıq ənənələrinin təzahürüdür. Elə aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin törətdiyi növbəti təxribatlara qətiyyətlə cavab verən Azərbaycan əsgərinin hünəri də, şücaəti də düşmənlərimiz üçün göz dağına, xalqımız üçünsə fəxr və qürur mənbəyinə çevrildi.

Bu günlərdə ön xətdə ezamiyyətdə olarkən ordumuzun aprel döyüşlərində fədakarlıq göstərən hərbçilərlə görüşüb söhbətlərini, arzu və istəklərini qələmə aldım. Onlardan biri - göstərdiyi nümunəvi xidməti ilə komandirlərinin və yoldaşlarının hörmətini qazanan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rəşad Qarayev haqqında danışmaq istəyirəm.

1992-ci ildə Samux rayonunun Salahlı kəndində dünyaya göz açıb. Düz bir il öncə ön xətdə manqa komandiri olarkən yaralansa da, qısa müddətdə müalicəsini alıb posta - döyüş mövqeyinə qayıdır. 2013-cü ildə əsgəri xidmətini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdiməyə başlayıb. Torpaqlarımızı düşmən tapdağından azad etmək üçün yenidən hərbi xidmətə qayıtdığını deyən Rəşad Ali Baş Komandanın əmrinə hər an hazır olduğunu söylədi. Olduqca təvazökar görünən Rəşad Qarayev Silahlı Qüvvələrdə hərbçilər arasında keçirilən yüngül atletika yarışlarının dəfələrlə qalibi olub.

Aprel döyüşlərində göstərdiyi fədakarlıqlar barədə isə komandirləri və döyüşçü dostları danışır. Onlar bildirirlər ki, Rəşad mərd, qorxubilməz, çevik, hazırlıqlı döyüşçüdür. Son döyüşlərdə xüsusi fəallıq göstərib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

Rəşad Qarayev döyüşlərdə dostluğun sədaqətinə, səngərdə yaranan möhkəm birliyə və komandir-əsgər münasibətlərinin səmimiliyinə şahid olduğuna əminliyini vurğulayıb. Onların adlarını çəkməkdən qürur duyduğunu bildirdi. "Baş leytenant Famit Rəhimov, leytenant Cəlal Məmmədli, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Xəzər Mirzəyev, Oktay İsmayılov, Tahir Eyvazov, baş gizir Şəhriyar Hüseynov, gizir Sabir Quliyev, kiçik çavuş Cavid Mirzəyev, əsgərlərdən Rəcəb Qasımov, Arzu Abdullayev, Elmar Babayev, Bədr Qəhriyev, Qaraca Süleymanzadə, Sərxan Qasımov və başqaları aprel döyüşlərində əsgəri şücaət göstərərək ordumuzun şöhrətini dünyaya yaydılar."

**Lalə HÜSEYNOVA,**
**" Azərbaycan Ordusu"**

Təlim

# Qarşıya qoyulan tapşırıqlar yerinə yetirildi...



***Ətrafda çadırlar qurulub, maşınlar bir xətt boyunca düzülüb. Təlimdə iştirak edən şəxsi heyət öz yerini tutub. Qarşıda təlimin keçiriləcəyi geniş çöl uzanıb gedir. Yazın son ayı olsa da, hava sərindir. Əsl təlim havasıdır. Səsgücləndirici vasitələrlə hərbi marş və mahnılar səsləndirilir və bu, iştirakçıları daha da ruhlandırır.***

Müdafiə naziri tərəfindən təsdiq edilən döyüş planına əsasən, bir azdan "N" hərbi hissəsində təlim başlanır. Əvvəlcə iştirakçılar kimya-müşahidə postu ilə, həmçinin digər texniki vasitə və qurğularla tanış olurlar. Arada yaranmış fürsətdən istifadə edib zabit və əsgərlərin təlim barədə fikirlərini öyrənirəm. Polkovnik-leytenant Natiq Osmanov dedi ki, "Hücum əməliyyatında əlahiddə kütləvi qırğın silahından mühafizə taborunun fəaliyyəti" mövzusunda keçirilən təlimə birliklərin kütləvi qırğın silahlarından mühafizə taqımları da cəlb olunub. "Üçüncü gündür ki, təlim davam edir. Şəxsi heyət əvvəlki mərhələlərdən uğurla keçib. Bu gün əsas mərhələnin tapşırıqlarını yerinə yetirəcəyik. Bu mərhələyə mühəndis-istehkam bölmələrindən də bir qrup cəlb edilib. Təlimin keçirilməsinin əsas məqsədi tabor komandiri və qərargahın döyüşə hazırolma dərəcələrinə gətirilmə vərdişlərini təkmilləşdirmək, yaranmış şəraitlərə uyğun əsaslandırılmış qərar qəbul etmək, vəziyyəti qiymətləndirmək, qarşılıqlı əlaqənin təşkili üzrə təcrübə verməkdir. Həmçinin təlimdə məqsəd şəxsi heyətin bölmə tərkibində kimya təminatı tapşırıqlarının yerinə yetirilməsi üzrə mənəvi-psixoloji dözümlülüyünü artırmaqdır.

İştirakçılar həm ərazinin maketi, həm də texniki vasitə və avadanlıqlarla tanış olduqdan sonra təlimin praktiki mərhələsi başlandı. Əmr verilən kimi avtomobillər və zirehli texnikalar təlim keçirilən sahəyə doğru irəlilədi. Kimyəvi-həyəcan siqnalı verildi. Şəxsi heyəti "düşmən"in atəşindən yayındırmaq üçün ərazidə tüstü örtüyü yaradıldı. Bir an içində hər tərəf görünməz oldu. Maskalanmadan istifadə edən şəxsi heyət üzərinə düşən döyüş tapşırıqlarını yerinə yetirməyə başladı. Zabit və əsgərlər üçün hər dəqiqə qiymətli idi. Ərazidə radiasiya-kimyəvi kəşfiyyat tədbirləri yerinə yetirilir, "düşmən"in hansı kütləvi qırğın silahı tətbiq etdiyi öyrənilir. Və onun zərərləşdirilməsi üçün təxirəsalınmaz işlər görülür.



Təlim meydanında tapşırıqların necə yerinə yetirildiyini müşahidə edirik. Nəzarət-buraxılış postunda isə geri qayıdan texnikaların çirklənmə dərəcəsi yoxlanılır və xüsusi vasitələrlə təmizləmə aparılır.

Polkovnik-leytenant Adil Mikayılov təlimin nəticələrini yüksək qiymətləndirərək bildirdi ki, şəxsi heyət nəzəri biliklərini bu gün praktiki yerinə yetirib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu sürücü Rza Həsənov təlimdə ilk dəfə iştirak edirdi. Söhbət zamanı dedi ki, tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirməyə çalışırdı.

Sonra zabitlərdən Qəhrəman Mənsiyev, Nicat Zeynalov, Nadir Həsənov, əsgərlərdən Rəhman Hümbətov, Ələsgər Əlizadə və başqaları da təlimdə üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetirdiklərini bildirdilər.

...Təlim başa çatdı. İştirakçıların üzü gülürdü, axı hər kəs üzərinə düşən işi bacarıqla yerinə yetirmişdi. Zabit Ağayar Nəbiyev söhbətimizdə qeyd etdi ki, şəxsi heyət belə təlimdə ilk dəfədir iştirak edir. "İnanıram ki, onlar iştirakçısı olduqları bu üç günü həmişə xoş təəssüratlarla xatırlayacaqlar. Təlim zamanı biz məqsədimizə nail olduq. Qarşıya qoyulan tapşırıqlar vaxtında və dəqiqliklə yerinə yetirildi".

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Gənc zabitlərimiz

# "Sülh istəyən xalq hərbə hazır olmalıdır"

***Vətənpərvərlik - insanın özü üçün deyil, eli üçün, milləti üçün yaşamasıdır. Sadəcə bu gün üçün deyil, gələcək üçün qurub yaratması, "Xalqım üçün" düşünüb, var etməsidir.***



"N" hərbi hissəsində qəzetimizə məqalələr hazırlamaq üçün qeydlər götürəndə leytenant Nicat Mehdixanov haqqında da danışdılar, nümunəvi, vətənpərvər zabit olmasından söz açdılar. Bu zabiti daha yaxından tanımaq üçün onunla görüşüb, söhbətləşmək istədim.

Leytenant ideoloji otaqda əsgərlərə ictimai-siyasi hazırlıq dərsi keçirdi. Dərs prosesini izlədim, gənc hərbçinin şəxsi heyətə aşıladığı mövzuya diqqət yetirdim. O, mövzunu əhatəli şəkildə əsgərlərə izah etməyə səy göstərirdi. Sonra zabit bizə yaxınlaşarkən gözlərindəki Vətən eşqi və xidmətinə olan sevgisi qəlbimi qürurla doldurdu. Bayaqdan əsgərlərə həvəslə keçdiyi dərsin hissləri ni yaşayan zabit söhbətimizdə bunları xüsusi qeyd etdi.

- Müstəqil dövlətimizin ideologiyasının, həmçinin Azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğinə böyük ehtiyac var. Dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidi. Dərslik vasitəsi kimi "Azərbaycan Ordusu" qəzetindən, "Hərbi bilik" jurnalından və digər dərs vəsaitlərindən də istifadə edirik. Bizə yardımçı olduğuna görə, doğma qəzetimizin rəhbərliyinə dərin minnətdarlığımı çatdırmağınızı xahiş edirəm. Gənclərimizin həm hazırlıqlı döyüşçü, həm də əsl vətəndaş kimi yetişməsində biz zabitlər əlimizdən gələni əsirgəmirik.

Söhbət əsnasında öyrənirəm ki, müsahibim 1992-ci ildə Cəbrayıl rayonunun Mahmudlu kəndində anadan olub. Doğma torpaq, el-oba dərdi yaşayan Mehdixanovlar ailəsi Bakıda məskunlaşıb. Həmsöhbətim deyir ki, ailələrində daim doğma el-obadan xatirələr danışılır. Bu ailə də hər gün, hər saat ata-baba ocağına qayıdacaqları günün həsrəti ilə yaşayır. Valideynlərinin arzusu illərdən bəri xəyallarında ziyarət etdikləri əcdadlarının qəbirləri üzərində şam yandırmaq, həyətdə qoyub gəldikləri hər şeyin ətrini qoxulamaqdır.

Müstəqil dövlətimizdə hərbi peşəni mənimsəmək və ömrünü bu sənətə həsr etmək istəyən gənclərimizin sayının ilbəil artması sevindirici haldır. Bu, bizim ordumuzun bu günü və gələcəyi üçün əhəmiyyətlidir. Nicat da baxmayaraq ki, Azərbaycan Dövlət Aqrar Universitetini bitirib, amma zabit olmaq istəyi ilə ehtiyat zabit hazırlığı kursu keçib. Torpaq itkisini, qisas hissini elə uşaq yaşlarından anlayıb, dərk edib. Doğulduğu ata ocağına ayaq basa bilməmə ilə heç cürə barışa bilmir. Vətənə olan sevgisi və qardaşının zabit olması da onda bu peşəyə maraq yaradıb.

Sülhməramlı qüvvələr taborunda xidmət edən zabitin hər sözündə, söhbətində vətənpərvərlik, milli təəssübkeşlik hiss olunur. O qeyd etdi ki, ordumuz bu gün Vətənimizin müstəqilliyinə yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır. "Biz aprelin əvvəllərində bir daha bunun şahidi olduq. Qəhrəman hərbçilərimiz xalqımıza illərdir həsrətində olduğu qələbə sevincini yaşatdılar. İşğalçı dövlətin bəzi siyasi xadimləri belə beynəlxalq arenalarda Qarabağın onların tarixi torpaqları olmadığını etiraf etdilər. Qəsbkar erməni ordusunun yalançı məğlubedilməzlik pərdəsi bir anın içində puç oldu. Xalqımız öz ordusu ilə qürur duydu. İnanıram ki, torpaqlarımızı düşmən tapdağından azad edərək həsrətini çəkdiyimiz Qarabağımıza qovuşacağıq."

Mustafa Kamal Atatürk deyirdi ki, sülh istəyən xalq hərbə hazır olmalıdır. Bu, çox dəyərli kəlamdır. Bəli, xalqımız mühəribə arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarıdır. Amma səbrimiz də sonsuz deyil. Bir ailənin iki zabit övladının timsalında qüdrətinə güvənib, cəsarət və hünərinə bel bağladığımız igid Vətən övladları hər an Ali Baş Komandanın əmri ilə işğalda olan torpaqlarımızı azad edəcəkləri günü səbirsizliklə gözləyirlər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# "Məqsəd mənəvi dəstəyimizi göstərməkdir"

***Cəmiyyətdə belə bir məşhur deyim özünə yaşamaq hüququ qazanıb ki, ordu xalqın övladıdır. Doğrudan da, dövlətimizin və dövlətçiliyimizin keşiyində dayanan Silahlı Qüvvələrimizdə Vətənimizin ən ləyaqətli oğulları xidmət edir, düşmənlə üzbəüz təmas xəttində xalqımızın əmin-amanlığının müdafiəsində dayanırlar. Təbii ki, ölkə başçısının qayğısı ilə ordu dövlət tərəfindən hərtərəfli təmin edilib. Bununla belə xalqın da mənəvi dəstəyini hiss etdikdə Silahlı Qüvvələr daha güclü olur, qarşısına qoyulan istənilən döyüş tapşırığını uğurla yerinə yetirir.***

Ordumuza heç zaman mənəvi dəstəyini əsirgəməyən təşkilatlardan biri Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin çoxsaylı kollektividir. Təmas xəttində döyüşlər səngidikdən sonra BHİK-in üzvləri cəbhə bölgəsinə gedərək, hərbi əməliyyatlar zamanı bölmələrin göstərdiyi şücaətlə ön xətdə tanış olmuş və döyüşçülərlə görüşərək Vətənimizin cəsur övladlarına hədiyyələrini çatdırmışdılar.



Bu günlərdə Abiyat Ağadadaşovanın rəhbərliyilə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri yenə Vətənimizin nəbzinin döyündüyü cəbhə bölgəsinə üz tutdu.

- Bundan öncə də ön xətdə zabit və əsgərlərimizlə görüşərkən belə bir fikrə gəldik ki, müqəddəs kitabımız olan "Qurani-Kərim"in nəfis tərtibatda çap edilmiş nüsxələrini ön xətdəki bölmələrimizə paylayaq, - deyə Abiyat xanım bildirdi. - Onlar burada Azərbaycan üçün ən vacib işləri görür, gecə-gündüz Azərbaycanı qoruyurlar. Həyatda Vətəni qorumaqdan müqəddəs nə ola bilər?! Bu insanlar Allahın dərgahında da ən yüksək məqam sahibidirlər. Düşündük ki, bağışlayacağımız "Qurani-Kərim"i döyüşçülərimiz bölmələrdə ən uca yerə qoysunlar. Dualarımız da ondan ibarətdir ki, müqəddəs kitabımızın sahibi böyük Yaradan Azərbaycanın ümidgahı olan bu oğulları pənahında saxlasın.

"N" hərbi hissəsində Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələrini mehribanlıqla qarşıladılar. General-mayor Hikmət Həsənov qonaqları səmimi salamladı və xeyirxah təşəbbüsə görə minnətdarlığını bildirdi. Zabit hazırda təmas xəttində döyüş növbəsi aparan hərbi qulluqçuların fədakarlıqları barədə onlara məlumat verdi. O, həmkarlar təşkilatının üzvlərinə bildirdi ki, qoşunlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə hərtərəfli əhatə edilib, döyüş növbəsinin aparılması ilə yanaşı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq gündəlik döyüş hazırlığı dərslərində, təlimlərdə öz ixtisas hazırlıqlarını artırmaqla məşğuldurlar. "Bölmələrimiz Ali Baş Komandanın istənilən döyüş tapşırığını can-başla yerinə yetirməyə hazırdır."

- Təbii ki, ordumuzun bizim köməyimizə heç bir ehtiyacı yoxdur, - Abiyat xanım bildirdi. - Prezidentimizin qayğısı sayəsində Silahlı Qüvvələrimiz bu gün yüksək səviyyədə təmin olunur. Hərbi hissələrimizdə bunun dəfələrlə şahidi olmuşuq. Hər cür şəraitə malik olan müasir hərbi hissələr inşa edilib və bölmələrimizin sərəncamına verilib. Döyüşçülərin peşəkarlığı da günü-gündən yüksəlir. Aprel döyüşlərində biz bunun şahidi olduq və qazanılan uğurlara görə həddindən artıq sevindik. Döyüşən oğullarımıza baş çəkməkdə məqsədimiz onlara mənəvi dəstəyimizi göstərməkdir.

Sonra zabit Valeh Rəcəbovun müşayiəti ilə qonaqlar ön xəttə yola düşdülər. Əvvəlcə Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri təmas xəttinə yaxın ərazidə inşa edilmiş hərbi hissənin qərargahında oldular, dövlətin öz ordusu üçün yaratdığı ən müasir şəraitə malik əsgər yataqxanaları, yeməkxana və digər əsgəri obyektləri gördülər.

Müqəddəs "Qurani-Kərim"in bir neçə nüsxəsi, ön mövqelərdə həmişə döyüşçülərimizin gərəyi ola biləcək elektrik generatorları hərbi hissəyə hədiyyə olundu. Həmçinin təşkilat üzvləri özlərilə gətirdiyi Azərbaycan süfrəsinin nemətlərinə döyüşçülərimizi qonaq etdilər.

Komandanlıq adından zabit Elnur Əbliyev qonaqlara öz dərin təşəkkürünü ifadə etdi və onların gəlişinin şəxsi heyətə xoş ovqat aşıladığını söylədi.

Təmas xəttində döyüş növbəsi aparan bölmə gündəlik qayğıları ilə məşğul idi. Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələrilə onların görüşü isə səmimiliyi və mehribanlığı ilə xoş duyğular oyatdı.

- Döyüşçülərimiz fəaliyyətlərini günün nizam qaydalarına uyğun olaraq qurublar, - deyə zabit bildirdi. - Onlar həm döyüş növbəsi aparırlar, həm də dərslərdə iştirak edərək peşə bacarıqlarını möhkəmləndirirlər. Gördüyünüz kimi, zabit və əsgərlərimizin vətənpərvərliyi, mənəvi-psixoloji hazırlığı xeyli yüksəkdir. Aprel döyüşlərində iştirak etmiş bölmələrimiz əsl rəşadət göstərərək düşmən üzərində qələbə qazandılar. Bu uğur onların döyüş ruhunu daha da artırdı.

Qonaqlar burada da döyüşçülərimizin yaşadığı şərait və xidmət prosesilə yaxından tanış oldular. Komitə sədri Abiyət Ağadadaşova zabit və əsgərlərlə səmimi söhbət etdi, onların qayğılarıyla maraqlandı. Bu söhbətlər həm döyüşçülərin, həm də qonaqların ürəyincə oldu.

Zabit Sergey Mirzəyevin rəhbərlik etdiyi Gəncə Zabitlər Evinin təşviqat heyəti də ön xətdə xidmət edən bölməyə qonaq gəlmişdi. Onların səsləndirdiyi vətənpərvərlik mahnıları hamının ovqatını təzələdi.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri gətirdikləri hədiyyələri döyüşçülərə bağışladılar. Abiyət xanım özlərilə gətirdikləri Azərbaycanın üçrəngli bayrağını da bölmə komandirinə təqdim edərək dedi:

- Bayraq millətimizin namusu və şərəfidir. Qoy həmişə vətənpərvər Azərbaycan oğullarının gücü ilə üçrəngli bayrağımız ucalıqlarda dalğalansın! Allah ordumuza yar olsun!

Ön xətdən qayıdarkən Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin bütün üzvlərinin əhval-ruhiyyəsi olduqca yüksək idi. Bu xoş ruhu onlara ön xətdə döyüş növbəsi aparan Vətən oğulları aşılamışdı. Yolboyu həmkarların sözü-söhbəti yalnız döyüşçülərimizdən idi. Kimsə yerindən dedi ki, Azərbaycan əsgəri dünyanın ən güclü və məğlubedilməz əsgəridir. Bu sözlərlə kim razılaşmaya bilərdi ki?!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Raul Kontreras amerikalı radio dinləyicilərinə Xocalı qırğını barədə məlumat verib

Amerikalı siyasi icmalçı, bu yaxınlarda çapdan çıxmış "Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" adlı kitabın müəllifi Raul Loueri Kontreras "TheBlaze" xəbər agentliyinin məşhur aparıcısı Kris Salsedonun radio verilişində çıxış edib.

Müsahibə zamanı Kris Salsedo Raul Kontrerasdan xahiş edib ki, o, öz kitabı haqda və Xocalı şəhərində baş vermiş, amerikalıların çoxunun eşitmədiyi hadisələr barədə məlumat versin. R.Kontreras Dağlıq Qarabağ münaqişəsi barədə, o cümlədən Azərbaycanın dinc əhalisinə qarşı erməni qoşunları tərəfindən törədilmiş Xocalı qırğını barədə ilk dəfə hansı şəraitdə eşitməsini amerikalı radio dinləyicilərinə söyləyib. Müəllif deyib ki, bu hərbi cinayətin təhqiqatı prosesində o, Xocalı qırğınından salamat çıxmış iki məcburi köçkünlə görüşüb, onlardan dörd saatlıq müsahibələr alıb. R.Kontreras vurğulayıb ki, həmin müsahibələr kitaba daxil edilib.

Verilişin aparıcısı daha sonra müsahibinin dinləyicilərə Azərbaycanda siyasi vəziyyət barədə məlumat verməsini xahiş edib. R.Kontreras vurğulayıb ki, Azərbaycan ABŞ-ın tərəfdaşıdır, 2001-ci ilin sentyabrında Nyu-Yorkda və Vaşinqtonda terror hücumlarından sonra Azərbaycan Amerikaya kömək əlini uzadıb. R.Kontreras Azərbaycana səfəri barədə söhbət açaraq səfər müddətində Bakıda sinaqoqa, pravoslav və katolik kilsələrinə getməsini də xatırlayıb və xüsusi qeyd edib ki, Azərbaycan cəmiyyəti müxtəlif dini icmaların nümayəndələrinin dinc yanaşı yaşadığı tolerant cəmiyyətdir.

Müəllif vurğulayıb ki, Ermənistan Azərbaycan Respublikasının ərazisinin 20 faizini hələ də işğal altında saxlayır, erməni təcavüzü nəticəsində bir milyon azərbaycanlı öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

*Heç kim unudulmur*

# "Döyüşçü yoldaşlarım məni gözləyir"

*Lökbatan qəsəbəsində bir küçə var - İsgəndər Qocayev küçəsi. Görəsən, bu küçə ilə gedib-gələnlər onu tanıyırlarmı? Bəli, İsgəndər Qocayev 1994-cü ilin soyuq qışında - yanvarın 18-də Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olub. Qoynunda 30 il əvvəl - 1 iyun 1965-ci ildə dünyaya göz açdığı Saatlı rayonunun Azadkənd kəndində torpağa tapşırılıb.*



İsgəndər Qocayevlə tanışlığım 90-cı ilin əvvəllərindən başlanmışdı. Qarabağ müharibəsində iştirak etmiş qonşum Əziz İmaməliyevgilə tez-tez gəlirdi. Sözlərindən, baxışlarından torpaqlarımızı işğal etmiş, Xocalı soyqırımını törətmiş ermənilərə nifrət yağırdı. Ürəyi intiqam hissi ilə döyünürdü. Bu intiqam hissi 1993-cü ilin noyabrında onu da ordu sıralarına, döyüşlərə apardı.

İsgəndər hündürboy, enlikürək bir oğul idi. İti baxışlarından, cəld hərəkətlərindən əsl döyüşçüyə oxşayırdı. Qarabağ müharibəsinə ürəyinin çağırışı ilə getmişdi. Döyüşlərdə cəsarətlə, hünərlə vuruşmuşdu. 1993-cü ilin noyabrından 1994-cü ilin yanvarına qədər bir döyüşçü kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla ləyaqətlə gəlmişdi. Cəsarəti ilə həm əsgər yoldaşlarının, həm də komandirlərinin hörmətini qazanmışdı. 1994-cü il yanvarın 18-də onları Murovdağ istiqamətinə növbəti əməliyyata göndərirlər. Qarşıya qoyulan tapşırıq yerinə yetirildi. Amma döyüş itkisiz ötüşmədi. Şəhid olanlardan biri də İsgəndər Qocayev idi.

O, müqəddəs bir yolda - torpaqlarımızın azadlığı yolunda şəhid oldu. Doğmaları, əzizləri onunla fəxr edib öyünürlər. Ad günü ərəfəsində yaxınları ilə görüşüb söhbət etdim, xatirələrini dinlədim.

- Biz onunla neçə illərin dostu idik, - deyə Əziz İmaməliyev yenidən ötən illərə qayıtdı. - Mərd oğul idi. Məqsədi, amalı Qarabağı, eləcə də işğal olunmuş ərazilərimizi ermənilərdən azad etmək idi. Sonuncu dəfə onunla 1994-cü ilin qış günlərindən birində telefonla danışdıq. Ölümündən 22 il keçməsinə baxmayaraq, səsi hələ də qulaqlarımdadır. İsgəndəri dəfn edərkən qəbrinin torpağından bir ovuc götürdüm və indi də saxlayıram. Övladlarıma tapşırmışam ki, həmin torpağı məzarımın üstünə səpsinlər. Eyni torpağın uğrunda vuruşmuşuq, qoy eyni torpaq da bizə yorğan olsun.

Atası İsfəndiyar kişi isə danışanda kədərini gizlədə bilmir. "Oğlum haqqında danışmaq mənə çətindir. Qarabağa erməni hücumları başlanan gündən İsgəndər narahat idi. 1993-cü ilin noyabrında cəbhə bölgəsinə yollandı. Həmin il dekabrın 14-də döyüşçü yoldaşları Həsən və Rəcəblə böyük oğlu Yaşarın ad gününə gəlmişdi. Əsgər yoldaşları oğlumun cəsarətlə döyüşdüyünü deyəndə ürəyim dağa döndü. Rəcəb dedi ki, ata, belə oğul böyütdüyünə görə çox sağ ol! Sağollaşanda dedilər ki, amalımız Vətən torpaqlarını ermənilərdən azad etməkdir. Soyuq bir qış günündə isə qapımızı kədərli xəbər döydü, İsgəndəri itirdik..."

Qardaşı Qadir də danışdı:

- Hər şeydən əvvəl İsgəndər xalqını, Vətənini sevən bir insan idi. Sonuncu dəfə evə 1994-cü il yanvarın 11-də qayıtmışdı. Həmin gün kənddə iki döyüşçünün yas mərasimi keçirilirdi. Məsləhət gördüm ki, bəlkə bir-iki gün qalasan. İsgəndər razılaşmadı. "Mütləq getməliyəm. Döyüşçü yoldaşlarım məni gözləyir," - dedi. O, Vətənin müdafiəsinə yollandı. Bir həftədən sonra isə müdafiəsinə qalxdığı torpaq uğrunda şəhid oldu...

**V. MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan veteranları dünya ictimaiyyətini erməni faşizminin təbliğinə biganə qalmamağa səsləyir

***Bu gün Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan Ermənistan özünün təcavüzkarlıq siyasətini daha açıq və arxayın şəkildə davam etdirməklə kifayətlənmir, faşizmə xidmət göstərmiş cəlladlara abidə ucaldır. Biz veteranlar, ümumiyyətlə, Azərbaycan cəmiyyəti bəşəriyyətə zidd olan bu əməlləri birmənalı şəkildə qınayır və dünya ictimaiyyətini erməni faşizminin təbliğinə biganə qalmamağa səsləyirik.***



AZƏRTAC xəbər verir ki, bu fikir XX əsrin əvvəllərində azərbaycanlılara qarşı qanlı soyqırımlarının təşkilatçıları, sonradan nasist Almaniyasına xidmət etmiş general Dronun və ermənilərdən ibarət qisasçı legionun rəhbəri Qaregin Njdenin Yerevanda abidəsinin ucaldılmasına etiraz əlaməti olaraq, Respublika Veteranlar Təşkilatında keçirilən tədbirdə səslənib.

Tədbirdə müharibə, əmək və Silahlı Qüvvələr veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar və media təmsilçiləri iştirak ediblər.

Təşkilatın sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev çıxış edərək ermənilərin iki əsrdən artıq müddətdə türklərə, xüsusən Azərbaycan xalqına qarşı həyata keçirdikləri mənfur siyasətdən və törətdikləri qanlı qətliamlardan danışıb.

D.Rzayev müasir dövrdə ermənilərin öz sələfləri - İkinci Dünya müharibəsində faşizmə xidmət göstərmiş cəlladlar Qaregin Njdenin və general Dronun genişmiqyaslı təbliği ilə məşğul olduqlarını vurğulayıb. Bildirib ki, ermənilər bədnam niyyətlərini həyata keçirmək üçün Rusiya mediasından yararlanır, məqalələr, kitablar yazır, tanınmış rus kino xadimlərinin iştirakı ilə sənədli filmlər çəkir, təmtəraqlı təqdimatlar təşkil edirlər. Vaxtilə Qarabağda və Zəngəzurda azərbaycanlı əhaliyə qarşı qırğınlar törədən, sonradan Hitlerin, Himmlerin dostu olmuş Njde kimi faşist cəlladlara bəraət qazandırılmasına xidmət edən bu təbliğatda hədsiz ifrata varılır, onlar hətta qəhrəman səviyyəsinə yüksəldilir.

Məlumat verilib ki, ermənilərin bu yolverilməz əməlləri ilə bağlı İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 70 illiyi ərəfəsində Respublika Veteranlar Təşkilatının adından Rusiya Prezidenti Vladimir Putinə, eləcə də MDB-nin digər dövlət başçılarına müraciət göndərilib. Həmin müraciətə operativ cavab verən Rusiya Prezidenti bunu yolverilməz hesab edib və ölkəsində ermənilərin mənfur təbliğatının dayandırılması barədə tapşırıqlar vermişdi.

Respublika Veteranlar Təşkilatının sədri bildirib ki, ermənilər yenidən bədnam təbliğat maşınını işə salıb, faşist cəlladı Njde haqqında yazılmış kitabın Moskvada təqdimatını keçiriblər. Ermənistanda isə bu qatı nasistə abidə ucaldılıb və onun açılışında erməni faşizminin bugünkü dəstəkçiləri, o cümlədən prezident Serj Sarkisyan iştirak edib.

D.Rzayev deyib ki, Azərbaycan veteranları ermənilərin İkinci Dünya müharibəsində faşizmə xidmət etmiş Qaregin Njdeyə Yerevanda abidə ucaltmalarını qəti şəkildə pisləyirlər. O, bununla bağlı veteranlar adından Rusiya Prezidenti Vladimir Putinə, MDB-nin digər dövlət başçılarına, habelə beynəlxalq təşkilatlara ünvanlamaq üçün müraciət hazırlandığını bildirib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov müraciətin mətnini diqqətə çatdırıb.

Müraciətdə deyilir: "Nasist canilər Dro və Njdenin şərəfinə xatirə sikkələri kəsən, filmlər çəkən Ermənistanın bu cür davranışının xüsusi haqq verilməsinin səbəbi bizə aydın deyil. Yerevanda bir meydana və metronun bir stansiyasına Qaregin Njdenin adı verilib. Orada Drastamat Kananyanın adını daşıyan küçə də var. İndi hökumət binaları kompleksi və Ermənistanın hakim partiyasının qərargahı ilə yanaşı, Njdenin abidəsi də ucalır".

Müraciət müəllifləri BMT Baş Məclisinin "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsinə, neonasizmə və irqçiliyin müasir formalarının yayılmasına, irqi ayrı-seçkiliyə, ksenofobiyaya və onunla bağlı dözülməzliyə qarşı mübarizə" adlı 70139 nömrəli Qətnaməsinin 4-cü bəndini xatırladırlar. Həmin bənddə qeyd olunur ki, BMT Baş Məclisi "nasizm hərəkatının, neonasizmin və "Vaffen SS" təşkilatının keçmiş üzvlərinin hər hansı formada məşhurlaşdırılması, o cümlədən abidələr və memoriallar ucaldılması, nasist keçmişin, nasizm hərəkatının və neonasizmin üzə çıxarılması məqsədilə kütləvi nümayişlər keçirilməsi, eyni zamanda, antihitler koalisiyasına qarşı mübarizə aparmış və nasizm hərəkatı ilə əməkdaşlıq etmiş belə şəxslərin milli azadlıq hərəkatlarının iştirakçıları elan edilməsi və ya elan etmək cəhdləri vasitəsilə məşhurlaşdırılmasına görə dərin narahatlığını bildirir".

"Rus xalqının və digər xalqların övladları ilə çiyin-çiyinə bizim 700 min həmvətənimiz cəbhəyə yollanıb, onların yarıdan çoxu döyüşlərdə qəhrəmancasına həlak olub. Böyük Vətən müharibəsi illərində göstərdikləri igidliklərə görə Azərbaycanın təqribən 130 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülüb. Sovet xalqının igidliyinin nurlu xatirəsi Azərbaycanda bu gün də böyük ehtiramla yad edilir, 9 May günü əvvəlki kimi yenə də ən mötəbər dövlət bayramlarından biri olaraq qalır.

Biz, faşizm ilə müharibənin bütün ağrı-acısını görmüş, döyüşlərdə yoldaşlarını itirmiş insanlar nasist canilərin ətrafında qəhrəmanlar oreolu yaradılmasını ürək ağrısı ilə müşahidə edirik. Biz Ermənistanın vaxtı ilə ümumi vətənimiz uğrunda həlak olmuş insanların xatirəsinə və bütün sülhsevər bəşəriyyətə açıq-aşkar hörmətsizlik olan hərəkətlərinə görə hiddətlənirik. Əminik ki, biz Böyük Vətən müharibəsi qurbanlarının nurlu xatirəsinə sadiq qalaraq, Ermənistan tərəfindən təbliğ edilən faşizm ideologiyası timsalında ümumi şərə qarşı mübarizədə öz səylərimizi yenidən birləşdirəcəyik", - müraciətdə qeyd olunur.

Tədbirdə digər çıxış edənlər də Ermənistanda faşist Almaniyasının tərkibində SSRİ-yə qarşı döyüşlərdə iştirak etmiş şəxslərin xatirəsinin əbədiləşdirilməsi cəhdlərinin yolverilməz addım olduğunu vurğulayıb, belə əməllərin qarşısının alınması üçün dünyanın bütün sülhsevər ictimaiyyətinin qəti etiraz bildirməsinin vacibliyini diqqətə çatdırıblar.

Sonda müraciət səsə qoyularaq qəbul edilib.

# Məktəblilər Hərbi Dəniz Qüvvələrinin bazasına ekskursiya ediblər



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Bakı məktəblərinin şagirdləri üçün Hərbi Dəniz Qüvvələrinin bazasına ekskursiya təşkil olunub.

Burada şagirdlərə hərbi gəmilərin təyinatı, taktiki-texniki xassələri, döyüş qabiliyyəti, eyni zamanda şəxsi heyətin xidməti, sosial-məişət şəraiti haqqında məlumat verilib, onları maraqlandıran suallar zabit və miçmanlar tərəfindən cavablandırılıb.

# Xəbərlər:
## hadisələr, faktlar

### İsveçrədə dünyanın ən uzun dəmir yolu tuneli istifadəyə verilib



İyunun 1-də İsveçrədə təntənəli açılış mərasimindən sonra dünyanın ən uzun dəmir yolu tuneli istifadəyə verilib. Qotthard baza tuneli adlandırılan və tikintisi 17 ildən artıq çəkən bu tunelin açılışında İsveçrə, İtaliya, Almaniya, Fransa və Avstriyanın dövlət rəhbərləri olmaqla 500 nəfərdən ibarət fəxri qonaq ilk qatarda səfər edib.

57 kilometr uzunluğunda olan baza tuneli İsveçrə tarixində ən böyük tikinti layihəsidir. Alp dağlarının altından keçən dəmir yolu xəttinə "Əsrin tuneli" adı verilib.

İndiyədək dünyanın ən uzun dəmir yolu tuneli Yaponiyada yerləşən Seykan tuneli (54 km) idi.

### Hindistan: sursat anbarında yanğın nəticəsində azı 17 hərbçi həyatını itirib




Hindistanın Maharaştra ştatında sursat anbarında güclü yanğın baş verib.

Müxtəlif məlumatlara əsasən, insident nəticəsində azı 17 hərbçi həlak olub, 19 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Şahidlər anbarın binasında güclü partlayış baş verdiyini bildirirlər. Yaralanan hərbçilər yaxınlıqdakı xəstəxanalara çatdırılıb. Hazırda yanğının tam olaraq nəzarət altına alındığı bildirilir. İnsidentlə bağlı tədqiqat başlayıb, müstəntiqlər hadisənin səbəblərini araşdırırlar.

### Çində dünyanın ən uzun şüşə körpüsü tikilib



Çində fantastik mənzərəyə möhtəşəm görüntüsü açılan dünyanın ən uzun şüşə körpüsünün tikintisi başa çatıb.

393 metr uzunluğunda olan nəhəng qurğu Xunan əyalətindəki Çjansyasze Milli Parkında, yer səthindən 300 metr hündürlükdə yerləşir. İri şüşə panellərdən quraşdırılmış körpü 800 insanın ağırlığına tab gətirə bilir.

### İraq iyunda 5 milyon barrel neft satmaq niyyətindədir



İraq iyunda müştərilərinə satmaq üçün 5 milyon barreldən çox neft ayırıb.

Bununla da İraq Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) iyunun 2-də Vyanada keçirilən yığıncağından öncə bazar payını qorumaq istəyən Orta Şərq istehsalçıları arasına qatılıb. Səudiyyə Ərəbistanından sonra OPEC-in ikinci böyük neft istehsalçısı olan İraq cənub terminallarına rekord səviyyədə - gündəlik 3,47 milyon barrel neft ixrac etməyi nəzərdə tutur.

### ABŞ-da təyyarə avtomobil yoluna enib



ABŞ-ın Missisipi ştatında yüngül mühərrikli təyyarə avtomobil yolunda qəza enişi edib. Yerli polisin məlumatına əsasən, pilot idarəetməni itirdiyi üçün təcili eniş etməyə məcbur olub. Eniş zamanı yolda hərəkət edən avtomobillər qəzadan yayına bilib və təyyarə yolun kənarında dayanıb. İnsident nəticəsində heç kimin xəsarət almadığı bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Vətənpərvərlik*

# "Biz hamımız Mübarizik"



**Akademik Zərifə Əliyeva adına liseyin həyətində böyük canlanma var idi. Məktəblilər arasında "Biz hamımız Mübarizik!" mövzusunda hərbi vətənpərvərlik yarışı keçirildi. Yarışa 4 komanda qatılmışdı.**

Liseyin direktoru Mehriban Vəliyeva tədbiri açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Hərbi rəhbər Qılman Eyvazovun rəhbərliyi ilə yarış başlandı. Şagirdlər maneələri cəld və çevik hərəkətlərlə adlamağa can atırdılar. Onlar komandalarını finala çıxarmaq üçün səhvə yol vermirdilər. Şagirdlərin yerinə yetirdikləri hərəkətlərin ritminə uyğun musiqi də səsləndirilirdi. Musiqi sədaları iştirakçıları qələbəyə ruhlandırırdı.

Gərgin mübarizədən sonra yarımfinal qarşılaşması başa çatdı. Qalib gəlmiş 2 komanda arasında final yarışına start verildi. Birinciliyin ən gərgin və maraqlı anları başlandı. Məktəblilər bu mərhələdə qaçaraq halqalardan keçməli, avtomat darağına 15 ədəd patron doldurub boşaltmalı, yaralıya ilkin tibbi yardım göstərməli və sıra hazırlıqlarını nümayiş etdirməli idilər.

Yarış iştirakçıları həyəcanlı dəqiqələr yaşayırdılar. Azarkeşlər aramsız alqışlarıyla komanda üzvlərini qələbəyə ruhlandırırdılar. Yarışın qaydalarına görə məktəblilər cəld



hərəkətlərlə maneələri keçəndən sonra komandanın dayandığı məntəqəyə qayıdırdılar. Mübarizə meydanında onu komanda yoldaşı əvəz edirdi. Yarışı izləyən münsiflər heyəti məktəblilərin bütün hərəkətlərini düzgün qiymətləndirirdilər...

Liseyin direktor müavini Həcər İsrafilova ilə qısaca söhbət etdik. O bildirdi ki, hərbi vətənpərvərlik yarışlarının müntəzəm olaraq keçirilməsinin çox böyük əhəmiyyəti var. "Məktəblilər bu yarışlarda güclərini sınayırlar. Onların vətənpərvərlik hissləri gücləndikcə Vətənə, torpağa ürəklə bağlanırlar. İnanıram ki, bu şagirdlərin sıralarından gələcəyin yüksək çinli zabitləri çıxacaq."

Gərgin yarış bir neçə saatdan sonra başa çatdı. Münsiflər heyəti qalibi elan etmək üçün qazanılan balları hesablamağa başladı. Məlum oldu ki, "Azərbaycan" komandası 19 balla hərbi vətənpərvərlik yarışının qalibi adını qazanıb.





Meydançanı alqış sədaları doldurur. Həm yarış iştirakçıları, həm də azarkeşlər sevinirlər. Hamı qalibləri alqışlayır, onlara əhsən deyirdi...

Liseyin direktoru Mehriban Vəliyeva fəxri fərmanları və kuboku qaliblərə təqdim etməzdən əvvəl çıxış etdi. O dedi:

- Hamımız yaddaqalan bir gün yaşadıq. Xüsusən də şagirdlər bir anlıq da olsa özlərini ordu sıralarında əsgər kimi hiss etdilər. Yarışdakı fəallığına görə hər kəsə minnətdarlığımı bildirirəm. Hiss olundu ki, yarışa ciddi hazırlaşmısınız, işinizə məsuliyyətlə yanaşmısınız. Bu yarış həm sizi mehribanlaşdırdı, həm də birləşdirdi. Güc isə birlikdədir. Həmişə bir olun, həmişə güclü olun! İnanıram ki, siz Vətəni Mübariz kimi sevəcək, Mübariz kimi qoruyacaqsınız. Gələcək həyatınızda sizə uğurlar arzulayıram.

Sonra komandalara fəxri fərman və təşəkkürlər verildi. Kubok isə qalib komandanın kapitanına təqdim edildi. Hərbi rəhbər Qılman Eyvazovun da əməyi təşəkkürlə qiymətləndirildi.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# ANAMA Füzuli və Tərtər rayonlarında dörd partlamamış hərbi sursat aşkarlayıb

İyunun 1-də 7 ev və həyətyanı sahəyə, 6 əkin sahəsinə, 22 partlayış yerinə baxış keçirilib. Dörd partlamamış hərbi sursat (2 qrad raketinin mühərrik hissəsi, 1 qrad raketi və 100 millimetrlik 1 top mərmisi) aşkar olunaraq götürülüb. Gün ərzində 43 min 889 kvadratmetr ərazi minalardan təmizlənib.

Bu barədə ANAMA-nın iyunun 1-də Füzuli, Ağdam və Tərtər rayonlarında aşkar olunmuş partlamamış hərbi sursatlar barədə yaydığı hesabatında bildirilir.

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Tərtər rayonunun Şıxarx kəndində 2 ev və həyətyanı sahədə 5 partlayış yerinə baxış keçirilib. Bir qrad raketinin mühərrik hissəsi aşkar edilərək götürülüb, 15 min kvadratmetr ərazi yoxlanılıb. Cəmilli kəndində 1 ev və həyətyanı sahədə 7 partlayış yerinə baxış keçirilib və 1 qrad raketinin mühərrik hissəsi aşkar olunaraq götürülüb. 8 min kvadratmetr ərazi yoxlanılıb.

Tərtər rayonunun Qarağacı, Ağdam rayonunun Qaradağlı, Ballar kəndlərində ev və həyətyanı sahələrə, əkin sahələrinə, partlayış yerlərinə baxış zamanı hərbi sursat aşkar olunma-




yıb. Yoxlanılan ərazi 18 min 500 kvadratmetr təşkil edib.

Füzuli rayonunun Horadiz şəhərində dörd əkin sahəsində 4 partlayış yerinə baxış keçirilib. İki partlamamış hərbi sursat (1 partlamamış BM-21 raketi və 100 millimetrlik 1 top mərmisi) aşkar edilib. 2 min 389 kvadratmetr ərazi yoxlanılıb.

Ümumilikdə, agentlik tərəfindən aprelin 7-dən iyunun 1-dək Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Goranboy, Tovuz, Samux, Şəmkir, Cəlilabad, Ucar rayonlarında, Mingəçevir, Sumqayıt və Bakı şəhərlərində 555 ev və həyətyanı sahəyə, 2 hərbi hissəyə, 2 kənd qəbiristanlığına, 5 kənd orta məktəbinə, 1 tibb məntəqəsinə, 21 fermaya, əkin sahələrinə və 1 şərab zavodu ərazisinə baxış keçirilib. 1483 partlamamış hərbi sursat, 11 piyada əleyhinə mina, 3 piyada əleyhinə POMZ-2 və 6 tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

Hazırda agentlik tərəfindən yaradılmış xüsusi təyinatlı mobil çevik qrupları minaaxtaran itlərin dəstəyi ilə təmas xəttinin yaxınlığındakı kəndlərdə evlərin, məktəblərin və digər obyektlərin yerləşdiyi ərazilərdə əməliyyatları davam etdirir.

*Xarici ölkə ordularında*

# Yeraltı əməliyyatlar

Bir çox hərbi mütəxəssislər diqqətlərini yer altında baş verən əməliyyatlara yönəldiblər. Hərbi əməliyyatların gedişi zamanı yeraltı tunel və tikililərdən geniş istifadə edilməsi nəzərdə tutulub. Mütəxəssislər qeyd ediblər ki, müxtəlif növ qaçaq malları belə tunellər vasitəsilə bir çox sərhədlərdən keçirirlər. Onlara qarşı ABŞ ordusu vacib silah və cihazlarla təchiz olunmuş xüsusi bölmələrin yaradılmasını vacib sayır.

Tikili və tuneldə yerləşdirilən avadanlıq və cihazlar elə quraşdırılmalıdır ki, hərəkətə maneçilik törətməsin. Əsgərlər düşmənin silah və əl qumbaralarından qorunmaq üçün xüsusi mühafizə geyim dəsti ilə təchiz olunmalıdır. Əməliyyatlar zamanı yer altında fəaliyyət göstərmək üçün müxtəlif kəşfiyyat, rabitə vasitələri, kommunikasiya sistemi, ötürücü siqnallar, məhvedici vasitələrlə təchiz olunmaq vacibdir. Döyüşçülər darısqal, çətin keçilən tunel və tikililərdə zərərli havadan boğulmamaq üçün xüsusi mühafizə vasitələri ilə də təmin olunmalıdır. Qaranlıq tunellərdə işıqlandırma sistemindən istifadə edilməlidir. Burada döyüşçülər əməliyyat planını cızır, ərazinin sxemini çəkir, düşmənin harada yerləşdiyi haqqında məlumat toplayırlar. Hazırda ABŞ Müdafiə Nazirliyi bu istiqamətdə ümumi işlər aparır. Yer altında əməliyyatlar aparan dəstələr terrorçulara qarşı mübarizədə də fəal olacaqlar.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Kursant Sadıqov Ceyhun Miryəhya oğluna 2013-cü ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | mayor Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 378 Nüsxə 4720 |